YANINDAYIQ, TÜRKİYƏ!

05 (1260) 9-15 fevral 2023-cü il

# İQTİSADIYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır


## AZƏRBAYCAN VƏ TÜRKİYƏ HƏR ZAMAN BİR-BİRİNİN YANINDADIR




"Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbər Azərbaycanı çox sarsıtdı və kədərləndirdi".
Bu sözləri Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığı zamanı söyləyib.
Dövlətimizin başçısı zəlzələ zamanı həlak olanlarla bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana, onların ailələrinə və qardaş Türkiyə xalqına şəxsən öz adından və xalqımız adından başsağlığı çatdırıb, yaralananların tezliklə şəfa tapmasını dilədiyini bildirib.
Azərbaycan Prezidenti qeyd edib ki, bu, böyük fəlakətdir və ölkəmiz Türkiyənin bu dərdinə şərik çıxır.
Rəcəb Tayyib Ərdoğan zəngə və başsağlığına görə dərin təşəkkürünü bildirib.
Dövlətimizin başçısı deyib ki, onun tapşırığına əsasən, 420 nəfərdən ibarət xilasedici heyət artıq qardaş ölkəyə göndərilib və hadisə yerinə çatan kimi Türkiyədən olan həmkarları ilə birlikdə dərhal fəaliyyətə başlayacaq.

## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA TÜRKİYƏ XALQINA BAŞSAĞLIĞI VERİB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva fevralın 6-da Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edib.
Mehriban xanım Əliyeva paylaşımında qeyd edib: *"Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə xəbərləri dərin kədər hissi ilə qarşıladım. Allah faciə zamanı həlak olanlara rəhmət eləsin. Onların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayıram. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!"*




**Kahramanmaraş. 8 fevral, 15:04. Türkiyədə zəlzələ nəticəsində həlak olanların sayı 8574 nəfərə çatıb, 49 min 133 nəfər yaralanıb, 6 min 444 bina dağılıb.**
**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu rəqəmləri Kahramanmaraşa səfəri çərçivəsində açıqlayıb. Türkiyə prezidenti axtarış-xilasetmə işlərini yerində koordinasiya etmək üçün zəlzələ bölgəsinə gedib.**

## TÜRKİYƏ DAR GÜNÜNDƏ YANINDA YENƏ DƏ İLK OLARAQ QARDAŞINI GÖRDÜ

Fevralın 6-da sübh tezdən qardaş Türkiyədən gələn acı xəbər Azərbaycan xalqının, dövlətinin dərin hüznünə, kədərinə səbəb olub. Qardaş ölkədə baş verən dəhşətli zəlzələ nəticəsində çoxlu sayda insan tələfatının olması ölkəmizi də yasa bürüyüb.
Xalqımız sevinci sevincimiz, kədəri kədərimiz olan qardaşlarımıza bu çətin günlərdə mənəvi dayaq olmaq üçün dəstək paylaşımları edir, duaları ilə Türkiyənin yanında olduğunu bildirir. Bəli, bir millət iki dövlət - Azərbaycan və Türkiyə dar gündə də, xoş gündə də bir-birinə həyan, kömək, arxa-dayaq olur...



## Azərbaycanın hərbi tibb personalı Kahramanmaraşdadır

Türkiyədə baş vermiş zəlzələdə xəsarət alan insanlara tibbi yardımın göstərilməsi məqsədilə qardaş ölkəyə ezam olunan hərbi tibb personalımız hazırda Kahramanmaraş ərazisindədir.
Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, müxtəlif tibb ixtisasları üzrə təcrübəli hərbi həkimlərimiz zəruri tibbi yardımın göstərilməsi üçün tam hazır vəziyyətdədir.
Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunun 20 nəfərdən ibarət heyəti Türkiyəyə göndərilib.



## Türkiyə tarixinin ən böyük zəlzələsi ilə mübarizə aparır



"Zəlzələ bölgəsinə 65 ölkədən yardımlar göndərilib".
Bunu Türkiyənin vitse-prezidenti Fuad Oktay deyib. Onun sözlərinə görə, zəlzələ nəticəsində 6 444 bina dağılıb.
"Dağıntılar altından 8 mindən çox şəxs sağ çıxarılıb. Axtarış-xilasetmə fəaliyyətlərimiz davam edir. Bu işlərə faktiki olaraq 6 218 nəfər təyin edilib və işləyir. Axtarış və xilasetmə qruplarına təxminən 1500 əlavə şəxs cəlb ediləcək".
Qeyd edək ki, fevralın 6-da baş vermiş dağıdıcı zəlzələ Türkiyənin 10 vilayətində 13,5 milyon insana təsir göstərib. Zəlzələ bölgəsinə 65 ölkədən yardımlar göndərilib. İlk kömək əlini uzadan Azərbaycan olub.






## FHN-in xilasetmə qüvvələrinin növbəti qrupu Türkiyəyə yola düşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Türkiyə Respublikasında baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarına dəstək məqsədilə Fövqəladə Hallar Nazirliyinin (FHN) növbəti, 227 nəfərdən ibarət çevik xilasetmə qüvvələri qardaş ölkəyə yola düşüb.
Qüvvələrin tərkibinə FHN-in Dövlət Yanğından Mühafizə Xidməti və Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq şəxsi heyəti daxildir.
Axtarış-xilasetmə əməliyyatları üçün qüvvələri qardaş ölkəyə çatdıracaq təyyarə Heydər Əliyev Beynəlxalq Aeroportundan Türkiyənin Adana şəhərinə istiqamət alıb.

## ZƏLZƏLƏ NƏTİCƏSİNDƏ HƏYATINI İTİRƏNLƏRİN XATİRƏSİNİ DƏRİN HÜZNLƏ YAD EDİRİK

Qardaş ölkədə baş vermiş təbii fəlakətlə bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölənlərin xatirəsini anmaq üçün Türkiyədə bir həftə matəm elan edib. Qardaş ölkənin Azərbaycandakı səfirliyinin önündəki Türkiyə bayrağı da yarıya qədər endirilib. Azərbaycan xalqı fevralın 6-da Türkiyədə baş vermiş dəhşətli zəlzələ nəticəsində həyatını itirənlərin xatirəsini dərin hüznlə yad edir. Zəlzələdə ölənlərin xatirəsini anmaq məqsədilə insanlar Türkiyənin ölkəmizdəki səfirliyinin qarşısında yaradılan xatirə guşəsinin önünə gül dəstələri düzürlər. Ölkəmizdə qardaş Türkiyədə baş vermiş dağıdıcı zəlzələdən zərərçəkənlərə yardım toplanır. İnsanlar bu soyuq qış günlərində ən vacib əşyaları, isti geyimləri zərərçəkənlər üçün toplayıb, xüsusi məntəqələrə gətirirlər. Zəlzələdən zərərçəkənlərə "AFAD" adına açılmış hesab nömrələri vasitəsilə heç bir komissiya tutulmadan yardım edilə bilər.





# "TOFİQ QULİYEVİN ƏSƏRLƏRİ DOĞRUDAN DA BİZİM BÖYÜK SƏRVƏTİMİZDİR"



Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Bakıda görkəmli bəstəkar, Xalq artisti, Dövlət mükafatı laureatı Tofiq Quliyevin abidəsinin açılışında deyib.

O, qeyd edib ki, həqiqətən Tofiq Quliyevin əsərləri Azərbaycan mədəniyyət aləmində bir inqilab etmişdir: "Onun əsərləri doğrudan da bizim böyük sərvətimizdir. Bu əsərlər ölməz əsərlərdir, bu gün də səslənir, bundan sonra da uzun illər ərzində səslənəcək. Çünki bu əsərlərin mahiyyətində həm Tofiq Quliyevin istedadı, eyni zamanda, Azərbaycan xalqına, doğma Bakı şəhərinə olan məhəbbəti dayanır".

Dövlət başçısı bəstəkarın Ümummilli Lider Heydər Əliyevlə dostluğundan danışaraq deyib: *"Atam Heydər Əliyevi Tofiq Quliyevlə sıx dostluq əlaqələri bağlayırdı. Onlar onilliklər ərzində bir-birinə böyük hörmət göstərən insanlar idi. Onların dostluğu çox təbii idi, səmimi idi, təmənnasız idi, əsl dostluq idi. Tofiq Quliyevin 80 illik yubileyində Ulu Öndər Heydər Əliyev məşhur sözləri demişdir, yəqin ki, hamımız o sözləri xatırlayırıq - biz hamımız dünyadan gedəcəyik, ancaq Tofiq Quliyevin musiqisi daim yaşayacaqdır. Artıq o gündən 26 il keçib və nə qədər dəqiq, həqiqətə uyğun sözlərdir, indi biz bunu bir daha görürük. Heç birimizdə şübhə yoxdur ki, əsrlər keçdikcə bu unudulmaz musiqi, bu mahnılar, Azərbaycan xalqının musiqi istedadını əyani şəkildə göstərən əsərlər yaşayacaq, bizi və sonrakı nəsilləri sevindirəcək"*.

# RUMINİYA AZƏRBAYCANLA STRATEJİ TƏRƏFDAŞLIĞI DƏRİNLƏŞDİRMƏYƏ HAZIRDIR

"Rumıniya ilə Azərbaycan 30 il ərzində gözəl diplomatik və siyasi münasibətlərə malikdir. 2022-ci ildə bunun çox güclü bir dinamikası baş verdi və Azərbaycan Prezidenti Buxarestə səfər etdi. Həmin səfər zamanı biz Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlığa dair Saziş imzaladıq".

Bu barədə Rumıniya Prezidenti Klaus Yohannis Azərbaycan Prezidenti İlham Əliyev ilə birgə mətbuata bəyanatında bildirib.

Klaus Yohannis Rumıniyanın Azərbaycanla strateji tərəfdaşlığı dərinləşdirməyə və mühüm strateji əhəmiyyətə malik regional layihələrin icrasına, enerji, ticarət, sərmayə qoyuluşu, rəqəmsallaşma və kənd təsərrüfatı sahələrində əməkdaşlığa hazır olduğunu deyib.

# Yaşıl enerji layihəsi çox strateji və böyük sərmayə tələb edən layihədir

"Yaşıl enerji istiqamətində də çox önəmli addım atılıb və sabah yaşıl enerji üzrə birinci Məşvərət Şurası keçiriləcək. Bu, çox strateji, böyük sərmayə tələb edən, bir neçə ölkəni, iki dənizi birləşdirən bir layihədir. Ümid edirik ki, sabahkı birinci rəhbər komitənin toplantısı gələcək birgə fəaliyyət üçün bir yol xəritəsini də təklif edəcək". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Rumıniya Prezidenti Klaus Yohannis ilə birgə mətbuata bəyanatında söyləyib.

Dövlətimizin başçısı deyib ki, çox önəmli strateji tərəfdaşlıq platformuna əsaslanaraq bu gün inkişafa doğru, enerji təhlükəsizliyinə doğru çox önəmli addım atmış olduq: "Eyni zamanda, digər sahələr də prioritet təşkil edə bilər, o cümlədən nəqliyyat sahəsi. Bakı və Konstansa limanları arasındakı əməkdaşlığın dərinləşdirilməsi üçün çox yaxşı imkanlar var".

Azərbaycan Prezidenti əmin olduğunu bildirib ki, həm qaz, həm yaşıl enerji dəhlizləri, o cümlədən nəqliyyat sahəsində də gözəl nəticələrə gətirib çıxaracaq.

# Heydər Əliyev Fondu Türkiyənin zəlzələ bölgəsinə humanitar yardım göndərir



Türkiyədə fevralın 6-da baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələ qurbanlarına dəstək məqsədi ilə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, Heydər Əliyev Fondu tərəfindən qardaş ölkəyə humanitar yardım göndərilir.

Bununla əlaqədar olaraq, faciədən zərər çəkmiş şəxslər üçün müxtəlif dərman preparatları, oksigen maskaları, filtrli sistemlər, sarğı materialları, onurğa taxtaları, ilkin yardım boyunluqları, xərək və s. daxil olmaqla tibbi ləvazimat və avadanlıqlar, eləcə də isti geyimlər çatdıracaq xüsusi təyyarə Türkiyəyə yola düşəcək. Türkiyəyə ezam edilən Fond əməkdaşları zəlzələ bölgəsində faciədən zərər çəkmiş vətəndaşlara humanitar yardım çatdıracaq.

# İLHAM ƏLİYEV: RUMINİYA-AZƏRBAYCAN ƏMƏKDAŞLIĞI YENİ MƏRHƏLƏYƏ DAXİL OLUR



"Energetika təkcə Rumıniya-Azərbaycan əlaqələrinin yox, bütövlükdə dünya gündəliyinin mərkəzində olan məsələdir. Uzun illər ərzində Azərbaycanın neft şirkəti SOCAR Rumıniyada fəaliyyət göstərir, 70-dən çox yanacaqdoldurma stansiyası və bir neçə yanacaq deposu var".

Bunu Azərbaycan Prezidenti İlham Əliyev Rumıniya Prezidenti Klaus Yohannis ilə birgə mətbuata bəyanatında deyib.

SOCAR-ın Rumıniyada fəaliyyətinin çox gözəl tarixçəsi olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, indi bizim əməkdaşlığımız yeni mərhələyə daxil olur: *"Buxarestdə olarkən təbii qazın Rumıniyaya çatdırılmasına dair saziş imzalanmışdır.*

*Beləliklə, Azərbaycan qazı Avropa məkanında yeni ünvana çatacaq və bununla paralel olaraq, Rumıniya imkanlarından istifadə edərək digər Avropa ölkələrinə Azərbaycan qazı nəql ediləcəkdir"*.

# RUMINİYA AZƏRBAYCANLA STRATEJİ TƏRƏFDAŞLIQ SƏNƏDİ İMZALAYAN İLK AVROPA İTTİFAQI ÖLKƏSİDİR

"Cənubi Qafqaz bölgəsi həm Rumıniya, həm Avropa İttifaqı üçün mühüm əhəmiyyət kəsb edir". Bu fikri Rumıniya Prezidenti Klaus Yohannis Azərbaycan Prezidenti İlham Əliyev ilə birgə mətbuata bəyanatında söyləyib. *"Azərbaycan Cənubi Qafqaz bölgəsində ilk ölkədir ki, Rumıniya onunla əməkdaşlığını strateji tərəfdaşlıq səviyyəsinə qaldırıb, bu, 2009-cu ilə təsadüf edir. Bununla yanaşı, bizim ölkəmiz Avropa İttifaqının ilk üzvüdür ki, Azərbaycanla strateji tərəfdaşlıq haqqında belə bir sənəd imzalayıbdır"*, - deyə Rumıniya prezidenti bildirib.

# TAP layihəsini uğurla icra etdik və Avropa İttifaqı üçün etibarlı enerji tərəfdaşına çevrildik

"İki il bundan əvvəl Cənub Qaz Dəhlizinin son seqmenti olan TAP layihəsini uğurla icra etdik və Avropa İttifaqı üçün etibarlı enerji tərəfdaşına çevrildik. Bunu Avropa İttifaqına rəhbərlik edən şəxslər qeyd edirlər. Keçən il Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış təbii qaz üzrə strateji Tərəfdaşlıq Memorandumu bunu bir daha göstərir".

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Rumıniya Prezidenti Klaus Yohannis ilə birgə mətbuata bəyanatında bildirib.

*"Hörmətli qonağımız (Rumıniya Prezidenti-red.) sabah Azərbaycanda keçiriləcək Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının açılış mərasimində iştirak edəcəkdir. Prezident Yohannisin açılışda iştirakı bu tədbirin böyük əhəmiyyətindən xəbər verir"*, - deyə dövlətimizin başçısı vurğulayıb.

# "Biz enerji təhlükəsizliyi məsələlərinə böyük diqqət yetiririk"

Bu fikri Prezident İlham Əliyev fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında çıxışında deyib.

*"Bizim gələcək ümumi addımlarımız iki ölkə arasında əlaqələr nəticəsində atılacaq. Biz strateji tərəfdaşlarıq"*, - deyə dövlətimizin başçısı vurğulayıb.

O, deyib: "Bu gün biz artıq TANAP-ın 16 milyard kubmetrdən 30 milyard kubmetrə qədər genişləndirilməsini nəzərdən keçiririk və TAP-ın 10 milyard kubmetrdən 20 milyard kubmetrə genişləndirilməsi haqqında danışırıq. Bu, alternativ enerji mənbəyinə böyük ehtiyac duyulduğunu göstərir. Bu, enerji təchizatının davamlı şaxələndirilməsinin zəruriliyini nümayiş etdirir. Biz buna hazırıq".

Avropaya qaz təchizatının artırılması ilə bağlı Avropa Komissiyası ilə imzalanmış Anlaşma Memorandumundan dərhal sonra Azərbaycandan daha çox qazın təchiz edilməsi məqsədilə əlavə imkanların yaradılması üçün fəal şəkildə işləməyə başladıq. Hazırda yeni yataqlardan bu il gözlədiyimiz hasilata, eləcə də mövcud "Şahdəniz" yatağında hasilatın artırılmasına əlavə olaraq, - bu, birmənalı olaraq baş tutur, - biz, həmçinin ölkə daxilində enerji səmərəliliyi üzərində işləyirik.

Təbii qaz ixracı artır - 2021-ci ildə təxminən 19 milyard kubmetr, ötən il isə 22,6 milyard kubmetr olmuşdur. Biz bu il onun 24,5 milyard kubmetr olmasını gözləyirik. Bu, o deməkdir ki, Avropa Komissiyası ilə Anlaşma Memorandumu uğurla icra olunur. Təbii qaz resurslarına gəldikdə, mən artıq dəfələrlə bildirmişəm ki, təbii qaz ehtiyatları bizə və tərəfdaşlarımıza ən azı 100 il üçün bəs edəcək.

Bu həcmin 10 qiqavatı "Masdar" şirkəti, 12 qiqavatı "Fortescue" şirkəti tərəfindən istehsal olunacaqdır.

"ACWA Power" şirkəti isə bugünkü mərasimdə imzalanmış və hazırda icra olunan razılaşmaya əlavə olaraq 2,5 qiqavat enerjinin istehsalı üzrə öhdəlik götürəcəkdir. Bu, həqiqətən də çox böyük potensialdır.

# Xalqımız heç zaman ədalətsizliyə və haqsızlığa biganəlik göstərməyib və göstərməyəcək




*(əvvəli ötən sayımızda)*

**- 44 günlük müharibə dövründə də İran rəhbərliyi anti-Azərbaycan əməllərinə davam etdi.**

- Bəli. Çox təəssüflər olsun ki, 44 günlük müharibə dönəmində də bəzi qonşu dövlətlərdən, xüsusilə də, uzun yüzilliklərə, əsrlərə dayanan münasibətlərimiz,ortaq tarixi keçmişimiz olan dövlətlərdən eyni münasibəti görmədik. Heç bir dövlətin, xüsusilə də, qonşularımızın daxili məsələlərinə qarışmasaq da, bunun qarşılığında bir çox hallarda bizim daxili işlərimizə yerli-yersiz müdaxilə cəhdlərini gördük. Xüsusilə də, 35 milyondan artıq soydaşımızın, Güney Azərbaycan türklərinin yaşadığı Cənub qonşumuz tərəfindən.

Bununla belə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenə də böyük təmkin, səbir nümayiş etdirərək, qonşu İran dövləti ilə münasibətlərin korlanmasına rəvac verə biləcək addımlardan çəkindi və bunu hər addımında, hər davranışında da açıq-aşkar nümayiş etdirdi.

Əfsuslar olsun ki, bütün bunların qarşılığında qarşı tərəfdən mütəmadi olaraq, yanlış davranışların, ələlxüsus, keçmişdə qalmış Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasında ədalətsiz mövqe nümayiş etdirilməsinin şahidi olduq. Heç kim üçün sirr deyil ki, İran İslam Respublikasına məxsus yük avtomobillərinin erməni faşizmi üzərində qələbədən sonra 2021-ci ilin oktyabr ayına kimi Qarabağa qanunsuz səfər etməsi və bununla bağlı İran tərəfinin heç bir əməli addım atmaması, məsuliyyətsizlik nümayiş etdirməsi iki ölkə arasında münasibətlərin yenidən gərginləşməsinə gətirib çıxardı. Ümumiyyətlə, bu arzuolunmaz və xoşagəlməz hal həm Qarabağın işğalı dövründə, həm də işğaldan sonrakı dövrdə müşahidə olunurdu ki, buna da Azərbaycanın səssiz qalması mümkün deyildi. Odur ki, İran İslam Respublikasının ölkəmizdəki səfiri Xarici İşlər Nazirliyinə dəvət olundu, görüşdə səfirin diqqəti bu ölkəyə məxsus yük avtomobillərinin Qarabağa qanunsuz səfər etməsi ilə bağlı aşkar edilmiş arzuolunmaz faktlara cəlb edildi. Həmçinin, bununla bağlı qarşı tərəfə nota təqdim edildi. Ancaq qarşı tərəfdən, qeyd etdiyimiz kimi, heç bir əməli addım atılmadı, əksinə, Azərbaycana qarşı hədələyici tonla danışıq üslubuna üstünlük verildi və təbii ki, anında da tərəfimizdən qarşılıq verildi.

**- Azərbaycan sülhsevər bir dövlətdir və hər zaman çalışır ki, problemi sülh yolu ilə nizama salsın. Lakin qarşı tərəfdən eyni münasibəti görmədikdə, qanunsuzluğun, beynəlxalq konvensiyaların kobud şəkildə pozulmasının şahidi olduqda, təbii ki, təmkin və səbiri kənara qoyaraq, lazımi addımlar atmağa məcburdur.**

- Sizinlə tamamilə razıyam. Biz bunun ən gözəl nümunəsini cənab Prezident İlham Əliyevin rəhbərliyi altında bəlkə də ən çox səbir göstərdiyimiz II Qarabağ müharibəsi zamanı gördük. Qalib, ədalətli, həmişə sülhün, haqqın keşiyində duran dövlət təbiidir ki, haqsızlıq qarşısında uzun müddət təmkinli davrana bilməz. Cənab Prezidenti İlham Əliyev də bu məsələ ilə bağlı çıxışlarının birində İran tırlarının qanunsuz olaraq Qarabağ bölgəsinə getməsi məsələsindən danışmış, bunun ilk dəfə baş vermədyini vurğulamış, işğal dövründə də, ondan sonrakı dövrdə də dəfələrlə bu hadisənin təkrarlandığını bildirmişdir. Hətta bununla bağlı İran tərəfinə narazılığın ifadə edildiyini, ancaq prosesin davam etdiyini demişdir. Prezident bildirmişdir ki, hətta onlar İran tırlarının üzərinə erməni nömrələrini yapışdırdılar, saxtakarlığa yol verdilər. Lakin biz məsuliyyətli, dostluq əlaqələrinə əsaslanan addımlar atdıq. Birinci dəfə şifahi xəbərdarlıq, ikinci dəfə rəsmi nota, üçüncü dəfə postlar - gömrük, sərhəd, polis... "Beləliklə, biz Azərbaycan ərazisindən keçən yola artıq nəzarət etməyə başladıq və ondan sonra Qarabağa gedən tırların sayı sıfıra endi. İndi baxın, buna gətirib çıxarmaq lazım idimi?, - deyə prezident bildirmişdir.

**- İranın ölkəmizə qarşı xəyanətkar davranışı yalnız bunlarla məhdudlaşmır. Məlumdur ki, Azərbaycanın işğal altında olan regionlarında məscidlərə qarşı hörmətsizlik edilmiş, dağıdılmış, yalnız bir məscid saxlanılmış, İrandan olan qondarma mütəxəssislərin köməyi ilə isə onu fars məscidi kimi təqdim etməyə cəhd göstərilmişdir.**

- Bəli. Hətta, evlər və ictimai binalar kərpic-kərpic, daş-daş sökülüb, Ermənistana və İrana satılmış, 60 min hektara yaxın meşə qırılıb, doğranıb, Ermənistana və İrana satılmışdır. İrandan Azərbaycanın Cəbrayıl rayonundan keçməklə Ermənistana və daha sonra Avropaya narkotrafik marşrutu vardı. Azərbaycan-İran sərhədinin digər sahələrində bizim tutub saxladığımız heroinin həcmi əvvəlki illərin müvafiq dövrü ilə müqayisədə iki dəfə artıb. Bu, o deməkdir ki, təqribən 30 il müddətində Ermənistan İranla əlbir olaraq Azərbaycanın o vaxt işğal altındakı ərazilərindən Avropaya narkotrafik üçün istifadə edib. Lakin biz artıq sözümüzü demişik və qarşı tərəf hansı seçimi edəcəksə, o cür də qarşılığını alacaqdır.

**- Ziyad müəllim, hətta İran bizim sərhədimizin yaxınlığında hərbi təlimlər də keçirdi.**

- Azərbaycanın 30 illik müstəqillik dönəmində belə hadisəyə təsadüf olunmamışdır. Təbii ki, hər bir ölkə öz ərazisində istənilən hərbi təlimi keçmək hüququna malikdir. Lakin sual yaranır. Heç bir zaman olmadığı halda, niyə məhz belə bir zamanda? Bizim sərhədimizdə keçirilməsində məqsəd nədir? Belə vəziyyətlərdə də Azərbaycan hər zaman məsələyə təmkinlə yanaşmışdır. Təəssüf doğuran məsələ isə odur ki, qarşı tərəf öz xətalarını, yanlışlıqlarını düzəltmək əvəzinə, yenə də münasibətlərin pisləşməsinə rəvac verəcək addımlar sərgiləməkdə davam edir. İranlı generalın ardınca Xarici İşlər naziri Abdullahian və ali dini rəhbər Xamenei Azərbaycanı hədələmiş və Azərbaycanla sərhəddə keçirilən təlimin hədəfinin Bakı olduğunu rəsmən elan etmişdilər.

**- Əlbəttə, İranın bu cür davranışları yalnız bumeranq effekti verəcək və özünə mənfi təsir edəcək.**

- Tehran İran avtomobillərinin Laçın dəhlizi ilə Ermənistanın Qarabağ anklavına qanunsuz daxil olması ilə bağlı Azərbaycandan ilk notanı avqustun 11-də, yəni İrandakı prezident seçkilərindən bir həftə sonra alıb. Heç şübhəsiz ki, bu nota İran-Azərbaycan-Rusiya əlaqələrinə əhəmiyyətli dərəcədə zərbə vura bilər. Bunu Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi, Astaranın dəniz limanı terminalları yaxınlığında Müştərək Sənaye Parkının layihəsi, Rəşt-Astara layihəsi və s. kimi layihələrlə əlaqədar olaraq qeyd etmək mümkündür. Hazırda İran şirkətləri Azərbaycanda fəaliyyət göstərməkdə, gəlir əldə etməkdədir. Odur ki, Cənub qonşumuzun bu tellərin qırılmasına yox, daha da möhkəmlənməsinə yönələn addımlara üstünlük verməsi məqsədəuyğundur. Bundan əlavə, İranın Ermənistanın haqsız çağırışlarını dəstəkləməsi bir çox istiqamətlərdə əməkdaşlığın dayandırılmasını da şərtləndirə bilər.

Azərbaycan gündən-günə inkişaf edən, beynəlxalq aləmə ciddi şəkildə inteqrasiya olunan, dünya dövlətləri tərəfindən tanınan, nüfuzlu bir ölkədir. Həmçinin, qeyd etmək lazımdır ki, məlum qadağalardan, sanksiyalardan sonra İran iqtisadiyyatı son illər sürətli şəkildə çöküş mərhələsi yaşamaqdadır. İranın bu vəziyyətdən çıxması üçün Zəngəzur dəhlizi layihəsinə dəstək verməsi təkcə Azərbaycan üçün deyil, böyük bir region üçün olduqca tarixi əhəmiyyət kəsb edən bu layihənin iştirakçılarından biri olması, ilk növbədə, qonşu ölkənin özünə lazımdır. Belə bir layihənin iştirakçısı olmağa İran hamıdan qabaq maraqlı olmalı, hamıdan qabaq dəstək verməlidir.

**- Son olaraq Azərbaycan-İran münasibətlərinin gələcəyi ilə bağlı fikirlərinizi bilmək istərdik. Nələr gözlənilir?**

- Yanvarın 27-də baş verən hadisə, səfirliyimizə açıq-aşkar hücum düşünürəm ki, İranın xəyanətkar siyasətinin günümüz üçün əsas kuliminasiya mərhələsi oldu. Fikrimcə, bu, Azərbaycan və İran dövlətləri arasındakı son 32 illik münasibətlərə İran tərəfindən atılan qara ləkədir. Biz öz yolumuzla irəliləyirik. Dünya artıq Azərbaycanı sözün yaxşı mənasında tanıyır, uğurlarını görür. Azərbaycan prezidentinin xüsusilə ölkə ilə əlaqədar məsələlərdə qətiyyətli mövqeyi artıq hər kəsə məlumdur. Bunun nəticəsidir ki, səfirlikdə baş verən məlum hadisədən sonra İran Prezidenti İbrahim Rəisi Prezident İlham Əliyevə zəng edərək, baş verən hadisə ilə bağlı öz başsağlığını ifadə edib və yaralananların tezliklə şəfa tapmasını arzulayıb. Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilmiş "terror aktını şiddətlə qınadığını" deyən Prezident İlham Əliyev isə terror aktının hərtərəfli araşdırılacağına və cinayətkarların layiqli cəzalarını alacaqlarına ümidvar olduğunu qeyd edib.

Qeyd edim ki, Azərbaycan Respublikasına bütün mənalarda ən yaxın dövlət İrandır. Odur ki, iki qonşu dövlət arasında əlaqələrin inkişafı, əməkdaşlığı regionun da rifahına və təhlükəsizliyinə təkan verə bilər. İran əhalisinin böyük bir hissəsinin azərbaycanlı olması isə münasibətlərə xüsusi diqqət ayrılmasını tələb edir. Bu amil Azərbaycanla İranı bir-birinə daha yaxın edən amillərdəndir.

Ümumiyyətlə, Azərbaycan-İran münasibətlərinin gərginləşməsində Ermənistan müstəsna rol oynayır. Məsələn, Ermənistanın Baş naziri Nikol Paşinyanın Tehranda ermənilərin "Ararat" idman salonunda "Qarabağ Ermənistandır!" şüarı yazılmış plakatının qaldırılması kimi hadisələri yada salmaq xoş olmasa da, unudulmayıb. Düzdür, bu arzu bizi istəməyənlərin ürəyində elə arzu olaraq da qaldı. Dünyanın bütün aparıcı qüvvələri Qarabağı məhz Azərbaycan torpağı kimi də tanıyır. Yaxud İran sürücülərinin Qafan-Gorus avtomobil yolundan qanunsuz olaraq istifadə etməsinin əsl suçlusu da Ermənistandır. Çünki həmin sürücülərin ölkəyə daxil olacağı yolu Ermənistan tərəfi müəyyənləşdirir.



Qeyd etməliyəm ki, Azərbaycan cəmiyyətində bu gün artıq Cənubi Azərbaycandakı soydaşlarımıza qarşı insanlığa sığmayan münasibət göstərilməsinə qarşı ümumxalq birliyi var. Çox xoş haldır ki, artıq İran dövlətinin bu haqsız siyasətinə qarşı səsini ucaldanlar, həmrəylik nümayiş etdirənlərin sayı milyonlarladır. Bu azadlıq uğrunda mübarizə bundan sonra daha da güclənəcəkdir və biz hər zaman öz qardaş-bacılarımızın yanında olmalıyıq. Mən bir ziyalı kimi, onu demək istəyirəm ki, biz Cənubi Azərbaycanın dünəni, bu günü, iqtisadi, sosial inkişaf tarixi ilə daha sıx maraqlanmalı, onların üzləşdiyi problemləri daha dərindən araşdırmalı, bu istiqamətdə lazımi addımlar atmalıyıq, bütün vacib amilləri təhlil etməliyik. Hesab edirəm ki, oradakı soydaşlarımızın həyat və məişət problemləri, hüquqları barədə danışmalı, bu barədə informasiyalarımızı primitiv faktlarla məhdudlaşdırmamalıyıq. Bir ziyalı olaraq gələcəyə böyük ümidlərlə baxıram və əminəm ki, vaxt gələcək Şəhriyarın, Süleyman Rüstəmin ayrılıqla bağlı nisgilləri, həsrət dolu fikirləri öz yerini vüsala verəcək və dünya azərbaycanlılarının birliyi, həmrəyliyi daha güclü olacaq. Azərbaycan özünün iqtisadi qüdrətini, beynəlxalq nüfuzunu daha da artıracaq.

**Müsahibəni hazırladı:**
**Mətanət HÜSEYNOVA**

## Təbrizim!

Baxdıqca hüsnünə doymayır gözüm
Təbrizim, Təbrizim, gözəl Təbrizim!

Qoymaram yadları girsin qoynuna,
İzin ver qolumu salım boynuna!
Sənin bayramına, sənin toyuna
Dili bir, qanı bir qardaşın gəlib,
Dərdinə aşina sirdaşın gəlib.

Bülbül zar-zar ağlar çəməndən ayrı,
İnsan deyib-gülməz vətəndən ayrı,
Can necə yaşasın bədəndən ayrı?!
Aç öz ürəyini danış, Təbrizim.
Olum dərdlərinlə tanış, Təbrizim!

Sən çıxdın qarşıma duzla, çörəklə,
Bağından dərdiyin güllə, çiçəklə,
İkiyə bölünmüş saf bir ürəklə,
Təbrizim, Təbrizim, aman Təbrizim
Yox olsun başından duman, Təbrizim!

Qədrini ayrılıq çəkənlər bilər,
Hicranda göz yaşı tökənlər bilər,
Ömrünə qaranlıq çökənlər bilər,
Bağından gül-çiçək dərdim, Təbrizim,
Yenə təzələndi dərdim, Təbrizim!

Nə qəşəngdir yol boyunca söyüdlər,
Söyüdlərin kölgəsində igidlər,
Babalardan dinləyirlər öyüdlər,
Coşub damarlarda qanı, Təbrizim,
Yoxdur bu mərdlərin sanı, Təbrizim!

Ağlasan ağlaram, gülsən gülərəm,
Yaşasan yaşaram, ölsən ölərəm,
Varımı səninlə yarı bölərəm,
Gəl bir də üzündən öpüm, Təbrizim!
Başına gül-çiçək sərim, Təbrizim!

Nədir o mənalı, dərin baxışlar?
Nədir gözlərindən yağan yağışlar?
Nədir qəlbindəki payızlar, qışlar?
Yetim tək boynunu əymə, Təbrizim!
Məlul-məlul baxıb durma, Təbrizim!

Sənin çiçəyinə, gülünə qurban!
Mənə qardaş deyən dilinə qurban!
Vətəninə qurban, elinə qurban!
Baxdıqca hüsnünə doymayır gözüm
Təbrizim, Təbrizim, gözəl Təbrizim!

**Süleyman Rüstəm**
**1941-ci il.**

# Землетрясение в Турции: спасатели из Азербайджана спасают людей из-под завалов



В ходе поисково-спасательных операций в районе Кахраманмараш в Турции, серьезно пострадавшем от землетрясения, спасатели МЧС Азербайджана спасли из-под обломков 16 человек, включая трех детей, а также извлекли 29 тел, сообщили в пресс-службе МЧС.
Также полевой мобильный госпиталь МЧС доставлен в Кахраманмараш с целью оказания медицинской помощи пострадавшим в результате землетрясения в Турции. Кроме того, в ночь на среду, 8 февраля МЧС сообщило, что для ликвидации последствий землетрясения в Турцию отправился очередной самолет с гуманитарной помощью министерства.
Отметим, что в соответствии с поручением президента Ильхама Алиева с целью ликвидации последствий сильного землетрясения и поддержки поисково-спасательных операций в зоне бедствия в Турции работают спасатели Министерства по чрезвычайным ситуациям Азербайджана.

# ЕБРР поддержит проект производства ветряной энергетики в Азербайджане

Европейский банк реконструкции и развития (ЕБРР) планирует поддержать проект производства ветряной энергетики в Азербайджане.
Об этом сказала журналистам во вторник глава представительства ЕБРР в Азербайджане Камола Махмудова в кулуарах мероприятия, посвященного запуску проекта IT Hub Azerbaijan в Баку.
«Зеленая энергетика — это приоритет для Азербайджана. В свою очередь, ЕБРР очень тесно сотрудничает с министерствами экономики, энергетики и активно поддерживает программы по декарбонизации в Азербайджане как на инвестиционном, так и политическом уровне. В прошлом году мы подписали проект финансирования Masdar – это разработка электричества посредством солнечной энергетики и в этом году мы планируем также поддержать проект ветряной электростанции на Абшеронском полуострове», - пояснила Махмудова.
Она отметила, что ЕБРР является одним из лидеров финансирования возобновляемой энергетики.



## В МИРЕ

# Франция вновь в своем амплуа - в Charlie Hebdo рады землетрясению в Турции




В результате сильного землетрясения, произошедшего вчера в братской Турции, погибло и пострадало много людей. Государства мира, и в первую очередь Азербайджан, всячески помогают Турции в это тяжелое время. Проармянская Франция же вновь в своем амплуа.
На странице в Twitter французского журнала Charlie Hebdo, отличающегося враждебностью к тюркам, мусульманам опубликована карикатура, изображающая разрушенные здания и перевернутые автомобили в Турции. Карикатура сопровождается подписью - "Землетрясение в Турции. Нет необходимости отправлять туда танки".
Это исключительный пример бесчеловечности. Charlie Hebdo в очередной раз переходит за грань и рамки сатиры. Под завалами остаются люди, в том числе дети, информация о числе погибших постоянно обновляется, а они публикуют карикатуры на эту тему, прикрываясь "свободой выражения".
Террор и геноцид, оккупация и вандализм - вот истинная сущность Франции, рядящейся в обличье "колыбели культуры и науки".
Charlie Hebdo размещал провокационные публикации и против Азербайджана.
Не секрет, что этот журнал занимает антиазербайджанскую, антиисламскую позицию.
Напомним, что 6 февраля на юго-востоке Турции произошло землетрясение магнитудой 7,7.
В связи со стихийным бедствием в Турции объявлен семидневный траур.

# Чавушоглу выразил благодарность Азербайджану



Министр иностранных дел Турции Мевлют Чавушоглу выразил благодарность Азербайджану.
С соответствующим заявлением глава турецкого МИД выступил на пресс-конференции.
«Как всегда, в первую очередь помощь пришла из Азербайджана. По поручению президента Азербайджана Ильхама Алиева в первые часы землетрясения в Турцию была отправлена помощь. Наряду с этим, министр иностранных дел Азербайджана Джейхун Байрамов находится со мной в постоянном контакте», - сказал Чавушоглу.

# SOCAR Türkiye обеспечивает спасательные машины топливом




SOCAR Türkiye предоставляет бензин и дизельное топливо всем машинам скорой помощи, пожарным машинам, спасательным машинам AFAD и машинам других организаций в пострадавшем от землетрясения регионе Турции.
Отметим, что 6 февраля на юго-востоке Турции произошло землетрясение магнитудой 7,7.
Очаг землетрясения с эпицентром в районе Пазарджик провинции Кахраманмараш залегал на глубине 7 километров. Имеются серьезные разрушения в провинциях Хатай, Газиантеп, Килис, Османие, Малатья, Адыяман, Шанлыурфа, Диярбекир, Адана и Кахраманмараш.

# Черногория заинтересована в азербайджанских инвестициях




Черногория открыта для инвестиций из Азербайджана в развитие зеленой энергетики страны. Об этом сказал в интервью Trend вице-премьер и министр капитальных вложений Черногории Эрвин Ибрагимович.
Ибрагимович подчеркнул, что на сегодняшний день Черногория уже эффективно сотрудничает с инвесторами из Азербайджана.
"Учитывая потенциал Черногории в области ветровой, солнечной, а также гидроэнергетики, мы работаем над развитием индустрии возобновляемых источников энергии в нашей стране, и мы открыты для иностранных инвестиций, особенно для азербайджанских инвесторов, потому что у нас был большой опыт работы с инвесторами из вашей страны", - добавил он.
Министр также отметил, что между Азербайджаном и Черногорией установились не только продуктивные партнерские, но и дружественные отношения.
Он подчеркнул, что Черногория также готова стать транзитной страной в поставках газа из Азербайджана в Европу.

# В Великобритании из-за кризиса воссоздали министерство энергетики



Министерство энергетики и углеродной нейтральности сформировано в Великобритании с учетом рекордно высоких цен на энергоносители в стране. Об этом говорится в сообщении, распространенном во вторник канцелярией главы правительства Риши Сунака.
Ведомство, которое займется энергетической политикой Соединенного Королевства, учреждено путем разделения полномочий министерства по делам бизнеса, энергетики и промышленной стратегии, которое возглавлял Грант Шэппс.
Он назначен министром энергетики.
Минэнерго было упразднено в 2016 году, когда премьером стала Тереза Мэй.
Воссоздание ведомства на Даунинг-стрит объяснили необходимостью «гарантировать долгосрочные поставки энергии, сокращение счетов за свет и уменьшение вдвое инфляции».
В канцелярии премьера увязали происходящее с конфликтом на Украине, подчеркнув важность для Лондона обеспечить увеличение поставок электроэнергии, вырабатываемой на британских АЭС и за счет возобновляемых источников.

# SOCAR AQŞ Azərbaycana qabaqcıl texnologiya gətirib

Kompleks qazma və quyu xidmətlərinin idarə edilməsi şirkəti olan SOCAR AQŞ ilk dəfə olaraq quruda qazma xidmətlərini icra etmək üçün beynəlxalq istehsalçıya məxsus müasir qazma qurğusunu Azərbaycana gətirib.
Şirkətdən verilən məlumata görə, bu, SOCAR AQŞ-nin həm ölkə daxilində, həm də xaricdə müştərilərinin mürəkkəb layihələrini və əməliyyatlarını həyata keçirmək üçün ən son texnologiyaların və yeni idarəetmə üsullarının tətbiqi üzrə çoxillik təcrübəsinə əsaslanır. Quruda qazma əməliyyatlarının həyata keçirilməsi Azərbaycanın enerji sənayesi və iqtisadiyyatı üçün mühüm əhəmiyyətə malikdir. Belə ki, bu qurğu vasitəsilə yeni qazma layihələri ilə yanaşı, uzun müddət istismarda olan yataqlarda qalıq neft-qaz ehtiyatının əlavə quyuların qazılması hesabına çıxarılması mümkündür. Həmçinin hələ də öyrənilməyə ehtiyac olan sahələrdə kəşfiyyat və axtarış quyularının qazılması da geoloji baxımdan daha əlverişli olacaqdır.
Beşillik təcrübəyə sahib olan və bu günə qədər 140-dan çox quyunun qazılmasını həyata keçirən SOCAR AQŞ ölkənin qazma sənayesində innovativ yanaşmaların tətbiqi, eləcə də təhlükəsiz və etibarlı həllər təqdim etməklə uğurlu fəaliyyətinə davam edəcək.

# KOBİA sahibkarlara ödənişsiz biznes təlimlərindən faydalanmaq imkanı yaradır




Sahibkarlar biznes sahəsində təlimlərə, bilik və bacarıqlara olan ehtiyaclarını videotəlim platforması vasitəsilə qarşılaya bilərlər.
Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) bildirilib ki, platformada hər biri 20 mövzudan ibarət olmaqla, 180 təlim videosu yerləşdirilib. Videotəlimlər biznesə başla, korporativ hüquq, layihə idarəetməsi, maliyyə, satış, marketinq, turizm, ixrac prosesinin təşkili və sair mövzuları əhatə edir. Platformada təlim mövzularının təqdimatları, eləcə də müvafiq özünüqiymətləndirmə testləri və təlimçilər barədə məlumatlar da öz əksini tapıb.

# Ağır əmək şəraitində çalışanlarla bağlı xərc məbləğləri vergidən azad edilib

Vergi Məcəlləsində edilmiş dəyişikliklərə əsasən, ağır, zərərli və təhlükəli istehsalatlarda işçilərin tibbi müayinədən keçirilməsi üçün işəgötürənin hesabına qanunvericiliklə müəyyən edilmiş qaydada ödənilmiş xərc məbləğləri vergidən azad edilib.
AZƏRTAC Dövlət Vergi Xidmətinə istinadla xəbər verir ki, əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən pulsuz müalicə-profilaktik yeməklər, süd və ona bərabər tutulan digər məhsulların dəyəri və işçilərə müəyyən edilmiş müddətlərdə və tələb olunan çeşiddə verilən xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələrinin dəyəri də vergidən azaddır.
Bundan başqa, təbii fəlakət və digər fövqəladə hallarla əlaqədar müvafiq icra hakimiyyəti orqanlarının qərarları əsasında, habelə xarici dövlətlər və digər təşkilatlar tərəfindən göstərilən birdəfəlik yardımlar, o cümlədən müvafiq icra hakimiyyəti orqanının qərarı ilə müəyyən edilmiş ezamiyyə xərclərinin məbləğləri də vergi rüsumundan azad olunub.

# "Naxçıvanın inkişafı üçün mövcud biznes mexanizmlərini tətbiq edəcəyik"



"Naxçıvanda idarəetmənin təkmilləşdirilməsi, iqtisadi potensialdan səmərəli istifadə, sosial-iqtisadi sahədə şəffaflığın artırılması, işgüzar mühitin yaxşılaşdırılması, sahibkarların qarşılaşdıqları çətinliklərin aradan qaldırılması prioritetdir".
Bu barədə İqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərliyi ilə dövlət qurumlarının təmsilçiləri və iş adamlarından ibarət nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə görüşdə bildirilib.
Görüşdə bu sahədə həyata keçirilən nəticəyönümlü islahatlar Muxtar Respublikanın ölkəmizin iqtisadi artım templərinə uyğun davamlı inkişafını şərtləndirəcəyi qeyd edilib. Eyni zamanda Prezident İlham Əliyevin rəhbərliyi ilə Naxçıvanda reallaşdırılan genişmiqyaslı tədbirlər, sistemli quruculuq işləri, o cümlədən mühüm infrastruktur layihələri, enerji təchizatı, müasir yolların, təhsil və səhiyyə obyektlərinin inşası, yeni müəssisələrin açılması və iş yerlərinin yaradılması istiqamətində görülən işlər vurğulanıb.

# Trans-Xəzər marşrutu Azərbaycanın Avropa ilə Asiya arasında kəsişmə nöqtəsi kimi əhəmiyyətini artırır



Çin və Mərkəzi Asiyadan yüklərin Avropaya daha tez və təhlükəsiz şəkildə çatdırılmasını təmin edəcək yeganə yol Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizidir.
Müasir dünyada cərəyan edən geosiyasi proseslər nəticəsində Trans-Xəzər Nəqliyyat Dəhlizi xüsusi əhəmiyyət kəsb etməyə başlayıb. Rusiya-Ukrayna münaqişəsi və İranın daxilindəki qeyri-sabit vəziyyət Avropanın Asiya ilə ticarət dövriyyəsinə böyük mənfi təsir göstərib və adıçəkilən dəhlizə marağı xeyli artırıb. Bu dəhliz Çindən başlayaraq Qırğızıstan, Özbəkistan, Qazaxıstan və Türkmənistan keçərək Xəzər dənizinə, buradan isə Azərbaycan, Gürcüstan və Türkiyə dəmir yolları vasitəsilə Avropaya birləşir. Ötən ilə bu marşrutla yükdaşımanın həcmi 6 dəfə artıb. Gələcəkdə sözügedən dəhlizlə yükdaşımanın həcminin dəfələrlə artacağı gözlənilir.
Türkiyənin Avropa ilə Asiyanın kəsişməsində yerləşməsi ona böyük üstünlük qazandırır. 2015-ci ildə Çinlə Türkiyə arasında imzalanan razılaşmaya əsasən, dəhliz boyu yol infrastrukturunun genişləndirilməsinə qarşılıqlı sərmayə yatırılır.
Azərbaycan da bu dəhliz üzərində yerləşən aparıcı dövlətlərdən biridir. Bakı-Tbilisi-Qars dəmir yolu Çindən Qazaxıstan və Rusiya ərazilərindən keçən xətlərdən fərqli olaraq, Avropa ilə Asiya arasındakı məsafəni 7000 kilometr qısaldır. Nəticədə yüklər 2 aya deyil, cəmi 2 həftəyə mənzil başına çatdırılır. Yaxın gələcəkdə isə bu marşrutla səyahət edəcək sərnişinlərin sayı da 1 milyondan 3 milyona yüksələcək.

# BP: Yüksək peşəkar mütəxəssislərlə ölkənin enerji keçidi sahəsindəki hədəfləri mütləq reallaşacaq



Bu günlərdə BP "Azəri-Çıraq-Günəşli", "Bakı-Tbilisi-Ceyhan", "Şahdəniz" və "Cənubi Qafqaz Boru Kəməri" layihələrindəki tərəfdaşları - "SOCAR", "TPAO", "LUKOİL", "NİCO", "MOL", "Equinor", "SGC", "İNPEX", "ExxonMobil", "İTOCHU", "TotalEnergies", "Eni", "ONGCVidesh" adından bərpa olunan enerji mənbələri sahəsində yerli mühəndislər hazırlanmasının bünövrəsini qoyacaq ilk universitet dərsliyini təqdim edib.
Layihənin məqsədi Bakı Ali Neft Məktəbinin (BANM) bərpa olunan enerji mənbələri üzrə ixtisaslaşan yeni nəsil mühəndislər hazırlanması səylərinə dəstək olmaqdır. Bu mütəxəssislər Azərbaycanın bərpa olunan enerji sektorunu gücləndirməklə enerji keçidini sürətləndirmək planlarını irəli aparacaqlar.
"Bərpa olunan enerji ehtiyatlarından istifadəyə giriş" adlı 220 səhifəlik yeni dərslikdən əlavə, layihənin əhatə dairəsinə bakalavr pilləsindəki tələbələr üçün xüsusi hazırlanmış yeni təlim kursunun yaradılması da daxildir.
Layihənin ümumi dəyəri 96 min manatdır. Bu məbləğ dərsliyin hazırlanması və nəşr olunmasını, eləcə də yeni təlim kursunun hazırlanmasını əhatə edir. Layihə BANM tərəfindən icra olunub.

# Azərbaycan ilə BƏƏ arasında bərpa olunan enerji məsələləri ilə bağlı əməkdaşlığa dair müzakirələr aparılıb



Enerji Məsələlərini Tənzimləmə Agentliyinin (AERA) İdarə Heyətinin sədri Samir Axundov Əbu-Dabi Milli Enerji Şirkətinin (TAQA) Ötürülmə və paylama üzrə icraçı direktoru Ömər Abdulla Əlhaşmi, Şəbəkə inkişafı və investisiyalar üzrə direktoru Qabriele Manduzio ilə görüşüb.
AERA-dan bildirilib ki, görüşdə Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında sıx əməkdaşlıq münasibətlərinin önəmi vurğulanıb. Həmçinin AERA və TAQA arasında qarşılıqlı əlaqələrin qurulması, Azərbaycanda enerji sahəsində ötürücü və paylayıcı şəbəkənin inkişafı, eləcə də bərpa olunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyası yönündə fikir mübadiləsi aparılıb.

# Elektrik və sənaye qaz qurğularının istismarına icazə sənədini "Bakı KOB evi" təqdim edəcək

Sahibkarlar Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən göstərilən xidmətlər - gücü 150 kilovatdan yuxarı elektrik qurğularının istismarına buraxılış aktının və sənaye qaz qurğularının istismarına icazənin alınması üçün "Bakı KOB evi"nə müraciət edə bilərlər.
Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) bildirilib ki, sözügedən xidmətlərə edilən müraciətlərə qanunvericilikdə müəyyən edilmiş müddət ərzində baxılaraq nəticəsinə dair yekun sənəd "Bakı KOB evi"ndə sahibkarlara təqdim olunur.



# BÖYÜK QAYIDIŞ: QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR QURUCULUQ VƏ DİRÇƏLİŞ YOLUNDA

*(əvvəli ötən sayımızda)*

Uzun müddətin və böyük maliyyənin tələb olunmasına rəğmən, hazırda Azərbaycan dövləti tərəfindən heç bir donorun - digər dövlətlərin və beynəlxalq təşkilatların yardımı olmadan azad edilmiş ərazilərin minalardan təmizlənməsi prosesi davam edir. 2020-2022-ci illərdə 57,6 min hektar ərazi minalardan təmizlənib. I Dövlət Proqramına əsasən 2023-2026-cı illərdə daha 215 min hektar ərazinin minalardan təmizlənməsi planlaşdırılır. 2026-cı ilin sonunda ümumilikdə 280 min hektar ərazi minalardan təmizlənmiş olacaq. Bu işlər üzrə əsas icraçı Minatəmizləmə Agentliyi, digər icraçılar isə Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidmətidir.

Dövlət Proqramına əsasən minatəmizləmə fəaliyyətinə dair təsdiq edilmiş illik tədbirlər planına uyğun olaraq, münaqişənin təsirinə məruz qalmış ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, həmçinin onların daşınması və zərərsizləşdirilməsi, minaların və partlamamış hərbi sursatın təsirinə məruz qalmış ərazilərin nişanlanması, müvafiq xəritələrin tərtibi və elektron məlumat bazasına daxil edilməsi, eləcə də xəritələrin şəhər və rayon mərkəzlərində yerləşdirilməsi qeyd olunan istiqamətdə atılacaq zəruri addımlardır.

Onu da qeyd edim ki, işğaldan azad edilmiş ərazilərin bərpası zamanı ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi prosesinin müddətinin proqnozlaşdırılan müddətdən çox davam etməsi Dövlət Proqramının əsas prioritetlərinin həyata keçirilməsi ilə bağlı çətinliklər yarada bilər. Ona görə bu sahədə digər dövlətlərin, beynəlxalq hökumət və qeyri-hökumət təşkilatlarının minalardan və partlamamış hərbi sursatdan və digər partlayıcı qalıqlardan təmizlənməsi üzrə qabaqcıl təcrübəsindən istifadə olunması və mümkün əməkdaşlıq imkanları nəzərdən keçiriləcəkdir.

Qarabağ və Şərqi Zəngəzur da Dövlət sərhədinin etibarlı mühafizəsinin təşkili, bu məqsədlə yeni yaradılan hərbi hissələrin maddi-texniki təminatının gücləndirilməsi, bütövlükdə Silahlı Qüvvələrimiz üçün müvafiq infrastrukturun və DTX-nin fəaliyyət məntəqələrinin yaradılması, dövlət sərhədində, Füzuli və Zəngilan Beynəlxalq Hava Limanlarında sərhəd buraxılış məntəqələrinin təşkil edilməsi, əhalinin və ərazilərin yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə müvafiq infrastrukturun formalaşdırılması, inzibati ərazi vahidlərində "Təhlükəsiz şəhər" xidmətinin təşkili, mərkəzi və yerli icra hakimiyyəti, məhkəmə hakimiyyəti, prokurorluq orqanlarının inzibati binalarının və zərurət olduqda, xidməti yaşayış binalarının tikintisidə Dövlət Proqramında Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili prioriteti üzrə qoyulmuş vəzifələrdir.

Fəxr hissi ilə qeyd etməliyik ki, ötən dövrdə Qarabağ və Şərqi Zəngəzurda həm Müdafiə Nazirliyinin, həm Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissələri yaradılmış, bu məqsədlə müvafiq infrastruktur inşa edilmişdir. Proqramla bu sahədə yeni vəzifələrin müəyyən edilməsi göstərirki, işğaldan azad olunmuş ərazilərdə hərbiquruculuq istiqamətində tədbirlər davam etdiriləcək.

Azərbaycanın 2023-cü il dövlət büdcəsində hərbi xərclər üçün 5,3 milyard manatdan artıq vəsait nəzərdə tutulub. Bu, Dövlət Proqramında hərbi və digər təhlükəsizlik məsələləri ilə bağlı vəzifələrin tam şəkildə yerinə yetirilməsini təmin edəcək. Ötən il noyabrın 8-də Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə Prezident İlham Əliyev bu barədə deyib: *"Gələn il üçün Azərbaycanın dövlət büdcəsi rekord həddə çatıb, o cümlədən hərbi xərclərə ayrılacaq vəsait də rekord həddə çatıb. Sual oluna bilər nə üçün, müharibə arxada qaldı, iki il keçib. Cavab çox sadədir. Ermənistanda revanşist qüvvələr baş qaldırır. Ermənistanda müharibənin nəticələri ilə barışmaq istəməyən qüvvələr, dairələr baş qaldırır. Ermənistan 2020-ci ilin 10 noyabr Bəyanatına tam əməl etmir, öz silahlı qüvvələrini Qarabağdan tam çıxarmayıb, Zəngəzur dəhlizini bizə təqdim etməyib, bizə qarşı vaxtaşırı hərbi təxribatlar törədir. Əlbəttə ki, biz hazırlıqlı olmalıyıq və biz hazırıq".*



## 2. ƏRAZİLƏRDƏ ŞƏHƏR, QƏSƏBƏ VƏ KƏND YAŞAYIŞ MƏNTƏQƏLƏRİNİN TİKİNTİSİ VƏ İNFRASTRUKTURLA TƏMİNİ

Torpaqlarımızın işğaldan azad olunmasından sonra dünya Azərbaycanın qələbəsi ilə yanaşı, başqa bir reallığa da şahidlik etdi. Şəhər və kəndlərimiz azad olunduqca əyani şəkildə aydın oldu ki, işğalçı yaşayış məntəqələrimizdə daşı daş üstə qoymayıb. Prezident İlham Əliyev işğaldan azad olunmuş rayonlara ilk səfəri zamanı bu barədə ürəkağrısı ilə söz açaraq torpaqlarımızdan sanki bir vəhşi qəbilənin keçdiyini bildirmişdi: *"…Yol boyunca dağıdılmış kəndləri və Füzuli şəhərini dağılmış vəziyyətdə görəndə adamın ürəyi ağrıyır. Vəhşilər bizim şəhərimizi nə günə salıblar?! Dağıdıblar, evləri dağıdıblar, bütün infrastrukturu dağıdıblar, bir dənə də salamat bina yoxdur. Bütün dünya görməlidir erməni vəhşiliyi nə deməkdir və bütün dünyaya biz bunu göstərəcəyik. Təkcə Füzuli yox, Ağdam şəhəri nə gündədir, başqa şəhərlər. Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib. Hər şeyi dağıdıb, talan edib, bizim mədəni, tarixi, dini irsimizi silmək istəyib, ancaq istədiyinə nail ola bilməyib".*

Bu gün Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində əsas diqqət yetirilən prioritet məsələ ermənilər tərəfindən dağıdılmış şəhər və kəndlərin bərpası, onların zəruri infrastrukturla təminatıdır. Bu barədə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də deyilir: *"Azərbaycanın tarixi ərazi suverenliyinin bərpası əhalinin öz doğma torpaqlarına qayıdaraq yaşaması üçün yeni mərhələ yaratmışdır. İşğaldan azad olunmuş bölgələrdə əhalinin dayanıqlı məskunlaşması təmin edilməlidir. Bu məqsədlə həmin ərazilər cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevrilməli, dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaradılmalıdır".*

Dövlət Proqramında elan olunan "Ərazilərdə şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi və infrastrukturla təmini" prioritetində bu məsələyə ətraflı nəzər salınıb, həyata keçiriləcək tədbirlərin ümumi istiqamətləri müəyyən edilib. Bu istiqamətlərə əsasən işğaldan azad edilmiş ərazilərdə aparılan bütün yenidənqurma, bərpa və şəhərsalma işləri qabaqcıl urbanizasiya modellərinin tətbiqi ilə, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə xidmət edəcək şəhərsalma prinsipləri və normalarına uyğun həyata keçiriləcək.

İşğal dövründə ermənilər tərəfindən ümumilikdə 8 şəhər və yüzlərlə kənd tamamilə dağıdılıb. Artıq qabaqcıl şəhərsalma qaydaları nəzərə alınmaqla dağıdılmış bu şəhərlər bərpa edilir, yenidən qurulur, yaşayış kompleksləri inşa olunur. Prezident İlham Əliyev bərpa və quruculuq işləri ilə bağlı daim prioritetləri açıqlayır, tapşırıq və tövsiyələrini verir. Prezidentin bu məsələdə vurğuladığı əsas məqamlardan biri odur ki, işlər kortəbi yox, planlı və sistemli şəkildə aparılmalı, bərpa ediləcək hər bir kəndin baş planı olmalıdır. *"Azad edilmiş bütün torpaqlarda görüləcək bütün işlər ancaq baş planlar əsasında olmalıdır. Baş plandan kənar bir dənə də daş daş üstə qoyulmamalıdır, bir dənə də qanunsuz tikili olmamalıdır. Yəni, biz nümunəvi bir yaşayış məkanını yaradırıq. Həm Azərbaycan üçün, həm dünya üçün nümunəvi bir təcrübə sahibi olacağıq"*, - deyə dövlət başçısı bildirib.

Baş plan şəhərin uzunmüddətli perspektiv inkişafını təyin edən əsas şəhərsalma sənədidir. Baş planın hazırlanması şəhər ərazi vahidi daxilində məskunlaşma ərazilərinin planlaşdırılmasını nəzərdə tutur. Baş plana şəhərətrafı ərazilərdə ayrı-ayrı yaşayış məntəqələri də daxil edilir ki, bu ərazilərə də məskunlaşma prosesinin tələbləri şamil olunur. Baş planda xəritə-sxem üzərində əsas tikinti obyektlərinin yerlərinin təyin olunması öz əksini tapır. Təyin olunmuş şəhər ərazilərinin sərhədlərində həmçinin elektrik, istilik, qaz və su təchizatı da proqnozlaşdırılmış əhali sayını nəzərə alaraq öz həllini tapır. Eyni zamanda, avtomobil yolları, ictimai nəqliyyat, körpülər və bu kimi nəqliyyat-mühəndis qurğularının da planlaşdırılması baş planda nəzərdə tutulur.

Artıq Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Kəlbəcər, Zəngilan və Qubadlı şəhərlərinin baş planları təsdiq edilib. Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərləri zamanı bu planlar təqdim olunub. Hər bir baş plan hazırlanarkən şəhərin özünəməxsusluğu və coğrafiyası nəzərə alınıb. Məsələn, Şuşa şəhərinin Baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Planda Şuşada orta, yüksək və qarışıq sıxlıqlı olan yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri də öz əksini tapıb. Plana əsasən mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində həyata keçiriləcək və tezliklə keçmişdə olduğu kimi, Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

Şuşada ümumi sahəsi 46.765 kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq.

Məhəllələr üzrə əhali sayı 2020 nəfər nəzərdə tutulur. Yaşayış massivində 20-dən artıq binanın olacağı planlaşdırılır. Yeni baş planda şəhərin tarixi əzəmətinin qorunması əsas götürülüb.

Şuşada salınan birinci məhəllədə ümumilikdə 450 mənzil olacaq. Burada bir otaqlı mənzillərin sayı 28, iki otaqlı mənzillərin sayı 195, üç otaqlı mənzillərin sayı 190, dörd otaqlı mənzillərin sayı isə 7-dir. Binalar 3 və 5 mərtəbəli olacaq. Kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

Ağdam şəhərinin ərazisinin 30 faizi əhalinin 70 faizini əhatə edəcək. Əhalinin 30 faizi fərdi evlərdə yaşayacaq. Şəhərdə 1750 fərdi ev, 23 min mənzil olacaq. Kommunikasiya, magistral və dəmir yolları, meliorasiya xətləri bir-biri ilə vəhdət halında qurulacaq. Yeni Baş plana əsasən Ağdam şəhərinə 8 kənd birləşdirilib. Ağdam şəhərinin əhalisi 36 min nəfər təşkil edib. Birləşdirilən kəndləri və əhalinin artımını da nəzərə alsaq, şəhər əhalisi 50 mindən yuxarıdır. Dövlət başçısının tapşırığına uyğun olaraq, şəhər 100 min nəfər əhali üçün planlaşdırılıb. Şəhərdə elektriklə işləyən tramvaylar da olacaq. Ağdamın ətrafı isə bağlarla əhatə olunacaq.

Ağdamda təməli qoyulan yeni yaşayış kompleksində ilkin mərhələdə 209 mənzildən ibarət 6 yaşayış binası inşa ediləcək. Mənzillərin ümumi yaşayış sahəsi 21 min 921 kvadratmetr olacaq. Kompleksin tikintisinin bu ilin dekabrında başa çatdırılması nəzərdə tutulur. İlk yaşayış məhəlləsində yaşayış binaları 4-7 mərtəbəli olacaq. İşğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir.

**Kəlbəcər şəhərinin Baş planının hazırlanması zamanı onun özünəməxsus simasının formalaşdırılması üçün ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq müxtəlif memarlıq ənənələri də araşdırılıb, tətbiq edilə biləcək nümunələrlə bağlı təkliflər verilib. Baş planın konseptual əsasını sağlamlıq və dağ turizmi imkanlarının inkişafı, təbiətlə vəhdətdə yaşıl şəhər mühitinin yaradılması təşkil edir.** Şəhərin mərkəzi hissəsində çoxmənzilli binalar, ətraflara doğru isə həyətyanı sahəsi olan fərdi evlər inşa olunacaq. Növbəti 20 il ərzində Kəlbəcər şəhərinin ərazisinin 237 hektara, əhalisinin sayının isə 17 min nəfərə çatacağı proqnozlaşdırılır.

O cümlədən Füzuli, Cəbrayıl, Zəngilan şəhərlərinin baş planlarında yaşayış yeri, məşğulluq üçün imkanlar və ictimai-sosial rifah kimi konseptual əsaslar dayanır. Şəhərlərin hər biri mənzərəli landşaftı, ictimai məkanları, sakinləri və qonaqları üçün rahat həyat şəraiti ilə seçiləcək. Bu mənada baş planların hazırlanması zamanı regionda müasir tələblərə cavab verən yeni infrastrukturun qurulması, şəhərlərə tezliklə qayıdacaq əhalinin yüksək yaşayış standartlarının, təhlükəsizliyinin, iş imkanlarının və yaşayış məntəqələrinin dayanıqlı inkişafının təmin olunması prioritet götürülüb, aparıcı dünya təcrübəsi öyrənilərək tətbiq edilib, "yaşıl enerji", "ağıllı şəhər" və bir çox digər müasir şəhərsalma yanaşmaları tətbiq olunub. Eyni zamanda, bu şəhərlərin hər biri strateji əhəmiyyətli yaşayış məntəqəsi kimi inkişaf etdiriləcək.

Zəngilanda salınan məhəllə şəhərin mərkəzi küçəsində, məktəb və biznes zonasının yaxınlığında yerləşəcək, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun olacaq. Bu məhəllədə ümumilikdə 10 bina tikiləcək. Bunlardan 6-sının ikimərtəbəli, 4-ünün isə üçmərtəbəli olması planlaşdırılır.

Füzuli şəhərində təməli qoyulan yaşayış məhəlləsi 17,8 hektar ərazini əhatə edəcək və mərhələli şəkildə tikilib istifadəyə veriləcək. İlk mərhələdə 1, 2, 3 və 4 otaqlı mənzillərdən ibarət 65 mənzilli 4-5 mərtəbəli yaşayış binaları inşa ediləcək. Məhəllədə çoxfunksiyalı binalar da olacaq. Ümumilikdə məhəllədə 2860 nəfərin yaşaması nəzərdə tutulur.

*(davamı gələn sayımızda)*

*Akademik Ziyad SƏMƏDZADƏ*

# “TID SOLUTION” QSC-nin 31 dekabr 2021-ci il tarixinə BALANS HESABATI

| AKTİVLƏR | 31 dekabr 2021-ci il |
|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | |
| **Debitor borcları:** | **1,062** |
| alıcılar və sifarişçilərlə hesablaşmalar | 1,062 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **28,424** |
| hesablaşma hesabı | 28,424 |
| **Sair qısamüddətli aktivlər:** | **3,202** |
| verilmiş avanslar | 47 |
| sair aktivlər | 3,155 |
| ***Cəmi qısamüddətli aktivlər*** | **32,688** |
| **CƏMİ AKTİVLƏR** | **32,688** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 31 dekabr 2021-ci il |
|---|---|
| **I .KAPİTAL** | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **2,000** |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **13,633** |
| hesabat dövründə xalis mənfəət (zərər) | 13,633 |
| **CƏMİ KAPİTAL** | **15,633** |
| **II UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | **3,872** |
| **Kreditor borcları:** | **5,000** |
| malsatan və podratçılarla hesablaşmalar | 5,000 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **8,020** |
| **Sair öhdəliklər** | **163** |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **17,055** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **17,055** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **32,688** |

| MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT | 01yanvar 2021-ci il tarixdən 31 dekabr 2021-ci il tarixinədək olan dövr üzrə |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | **75,243** |
| **İşlərin görülməsindən və xidmətlərin göstərilməsindən** | **75,243** |
| **CƏMİ GƏLİRLƏR** | **75,243** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **(55,892)** |
| **Əməyin ödənilməsi üzrə xərclər** | **(46,718)** |
| **Sosial sığorta və təminat üzrə xərclər** | **(8,589)** |
| **Bank xidmətləri üzrə xərclər** | **(379)** |
| **Sığorta üzrə xərclər** | **(206)** |
| **İşlərin aparılması xərcləri** | **(5,000)** |
| **CƏMİ XƏRCLƏR** | **(60,892)** |
| **Maliyyə mənfəəti (zərəri)** | **14,351** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **14,351** |
| **Mənfəət vergisi** | **(718)** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **13,633** |

**“TID SOLUTION” Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyinə**
**MÜSTƏQİL AUDİTORUN RƏYİ**

**RƏY**

Biz, “TID Solution” Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra “Cəmiyyət”) 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu siyasətlərinin xülasəsi və digər izahlı qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Fikrimizcə, maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2021-ci il tarixinə olan maliyyə vəziyyətini və onun həmin tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olmaqla bütün əhəmiyyətli hallarda düzgün əks etdirir.

**Rəy üçün Əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın “Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti” bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının “Etika məcəlləsinin” (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti**

Rəhbərlik bu maliyyə hesabatlarının MHBS-in tələblərinə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə və maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, saxtakarlıq və ya xətalardan qaynaqlanan əhəmiyyətli təhriflərin qarşısının alınması məqsədi ilə zəruri hesab etdiyi daxili nəzarət sisteminin təşkil edilməsinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Audit komitəsi Cəmiyyətin maliyyə hesabatlarının hazırlanma prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti**

Bizim məqsədimiz bu maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz də daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlikdə əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, BAS-lara uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

***Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti***

Bizim məqsədimiz tərtib edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

*Beynəlxalq Audit Standartlarının tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:*

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq əlbir hərəkətlər, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyəti verilmiş şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Auditor ______________________________

**29 iyun 2022-ci il**
Bakı, Azərbaycan Respublikası

# STATUS SIĞORTA BROKERİ MMC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HESABATI

| A K T İ V L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 0,00 | 0,00 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | 0,00 | 0,00 |
| **Daşınmaz əmlaka investisiyalar** | 0,00 | 0,00 |
| **Qeyri-maddi aktivlər** | 12 856,00 | 12 856,00 |
| **Sair aktivlər** | 114 094,43 | 134 831,12 |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **126 950,43** | **147 687,12** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | 0,00 | 0,00 |
| **Debitor borcları:** | 1 718,15 | 1 228,24 |
| birbaşa sığorta üzrə | 704,47 | 212,56 |
| büdcə üzrə | 1 015,68 | 1 015,68 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **1 333,34** | **1 939,64** |
| kassa | 0,00 | 0,00 |
| hesablaşma hesabı | **1 333,34** | **1 939,64** |
| **Sair aktivlər** | 0,00 | 0,00 |
| ***Cəmi qısamüddətli aktivlər*** | **3 051,49** | **3 167,88** |
| **CƏMİ AKTİVLƏR** | **130 001,92** | **150 855,00** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 10,00 | 10,00 |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | 90 928,89 | -109 332,62 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | -21 399,41 | -18 403,73 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | -42 702,44 | -64 101,85 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | -26 827,04 | -26 827,04 |
| Elan edilmiş dividendlər | 0,00 | 0,00 |
| ***Cəmi kapital*** | **-90 918,89** | **-109 322,62** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Kreditor borcları :** | 5 711,92 | 0,00 |
| əməyin ödənilməsi üzrə | 4 162,15 | 0,00 |
| büdcə üzrə | 0,00 | 0,00 |
| sosial sığorta və təminat üzrə | 1 549,77 | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 124 290,00 | **149 310,00** |
| **Sair öhdəliklər** | 0,00 | 0,00 |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **130 001,92** | **149 310,00** |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | 0,00 | 0,00 |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | 0,00 | 0,00 |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | 0,00 | 0,00 |
| **Kreditor borcları:** | **0,00** | **1 545,00** |
| əməyin ödənilməsi üzrə | 0,00 | **0,00** |
| büdcə üzrə | 0,00 | 0,00 |
| sosial sığorta və təminat üzrə | 0,00 | **1 545,00** |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **0,00** | **1 545,00** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **130 001,92** | **149 310,00** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **39 083,03** | **41 532,38** |

# Türkiyədə baş verən zəlzələnin ilkin iqtisadi zərəri açıqlanıb

Türkiyə və Suriyada baş verən zəlzələ 1 mlrd. dollardan çox iqtisadi zərərə səbəb ola bilər. Bu barədə ABŞ Geoloji Tədqiqat mərkəzi məlumat yayıb. İlkin hesablamalara görə, iqtisadi xərclər 1 mlrd. dollara çata bilər. İqtisadi itkilərin isə əlavə 100 mln. – 1 mlrd. dollara qədər olacağı təxmin edilir. Bu günlərdə Türkiyə birja indeksi də dəyər itirib.



# AYİB Azərbaycanda İT layihəsinə 300 min dollar ayırıb

“Avropa Yenidənqurma və İnkişaf Bankı “IT Hub Azerbaijan” layihəsi ilə bağlı 300 min dollar texniki dəstək göstərib.” Bunu Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB-EBRD) Azərbaycandakı daimi nümayəndəliyinin rəhbəri Kamola Mahmudova deyib. O bildirib ki, Azərbaycanın regionlarında informasiya texnologiyaları üzrə mütəxəssislərin hazırlanmasına yönələn layihə çərçivəsində Bakıdan kənarda, Azərbaycanın regionlarında 80 İT mütəxəssisin hazırlanması planlaşdırılıb. Bu, Azərbaycanın regionlarında yeni iş fürsətləri yaradacaq.

# Bankların maliyyə institutlarından cəlb etdiyi depozitlər 17% artıb

2022-ci ilin sonunda Azərbaycan banklarının maliyyə institutlarından cəlb etdiyi depozitlər 1 milyard 254,2 milyon manat təşkil edib.




Bu barədə Azərbaycan Mərkəzi Bankından bildirilib. Bankların maliyyə institutlarından cəlb etdiyi depozitlər son 1 ildə isə 17,1% artıb.

# Qeyri-neft sektoru üzrə ixrac 22,6 faiz artıb

Cari ilin yanvarında Azərbaycanın ümumi ixracı 1,9 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac 284,5 milyon ABŞ dolları təşkil edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac icmalı”nın yanvar nömrəsinə bildirilir ki, qeyri-neft sektoru üzrə ixrac ötən ilin müvafiq dövrü ilə müqayisədə 22,6 faiz artıb. Yeyinti məhsulları üzrə ixrac 64,3 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 220,2 milyon ABŞ dollarına bərabər olub.

Bu ilin yanvar ayı ərzində kimya sənayesi məhsullarının ixracı 11,3 faiz, spirtli və spirtsiz içkilərin ixracı 11,1, şəkər ixracı 2,5, çay ixracı isə 2,3 dəfə artıb.

Aqrar və aqrar sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 67,1 milyon ABŞ dolları təşkil edib. 2023-cü ilin yanvar ayı ərzində ixrac edilən meyvə-tərəvəz məhsulları aqrar məhsullar qrupunun 94 faizini təşkil edib.

Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,7 dəfə artıb.

## Qarabağın görkəmli simaları

# Paşa Rüstəmov (1920-1997)



***Görkəmli kimyaçı-alim, Azərbaycan EA-nın müxbir üzvü Rüstəmov Paşa Həbib oğlu 1920-ci il mayın 20-də Şuşa şəhərində sənətkar ailəsində anadan olub. O, 1934-cü ildə Şuşa şəhər orta məktəbini bitirmiş, 1937-ci ildə Şuşa pedaqoji işçi fakültəsini bitirərək, Bakı Dövlət Universitetinin kimya fakültəsinə daxil olmuş, 1941-ci ildə oranı bitirmişdir.***

1941-1942-ci illərdə Şuşa Uşaq vərəm sanatoriyasında müəllim işləmişdir. Böyük Vətən müharibəsi illərində ordu sıralarına çağırılmışdır. P.Rüstəmov müharibədən qayıtdıqdan sonra 1945-1948-ci illərdə Şuşa 1 saylı orta məktəbində tədris hissə müdiri və 1948-1952-ci illərdə Şuşa rayon maarif şöbəsinin müdiri olmuşdur. 1953-cü ildə Azərbaycan EA Kimya İnstitutunun aspiranturasına daxil olmuş, 1957-ci ildə kimya üzrə fəlsəfə doktoru, 1967-ci ildə kimya üzrə elmlər doktoru elmi dərəcəsini, 1968-ci ildə isə professor elmi adını almış, 1983-cü ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir.

**Elmi fəaliyyəti**

Paşa Rüstəmov 1959-1983-cü ilə qədər Azərbaycan SSR EA Qeyri-üzvi və Fiziki Kimya İnstitutunda laboratoriya müdiri, 1983-1986-cı illərdə BDU-nun kimya fakültəsinin "Qeyri-üzvi kimya" kafedrasının müdiri, 1986-1997-ci illərdə həmin kafedranın professoru olmuşdur.

***P.Rüstəmov respublikada fiziki-kimyəvi analizin və yarımkeçiricilər kimyasının əsasını qoyanlardan biridir. O, ikili, üçlü və daha mürəkkəb sistemlərin hal diaqramını öyrənmiş, yarımkeçirici materialların sintezi və tədqiqində diqqətəlayiq nəticələr əldə etmişdir.*** Onun rəhbərliyi və bilavasitə iştirakı ilə yüksək temperaturda davamsız kükürdlü birləşmələrin sintez şəraiti təkmilləşdirilmiş və materialşünaslıqda istifadə üçün tövsiyə edilmişdir. Alimin elmi məqalə və ixtiralarında xalkogenid birləşmə və bərk məhlullar əsasında onun yaratdığı yüksək effektli fotoçeviricilər, termoelektrik materiallar və radiasiya fazasını təyin etmək üçün qamma-detektorlarının hazırlanma texnologiyaları öz əksini tapmışdır. P.Rüstəmovun rəhbərliyi ilə 10 elmlər doktoru, 50 fəlsəfə doktoru yetişdirilib. P.Rüstəmov 600-dən çox elmi əsərin, o cümlədən 51 müəlliflik şəhadətnaməsi və 14 monoqrafiyanın müəllifidir.

***O, I dərəcəli Vətən müharibəsi ordeninə, akademik Kurnakov adına medala və Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bürünc medalına layiq görülmüşdür.***

Paşa Rüstəmov 1997-ci ildə Bakıda vəfat etmişdir.

# Dr.Emin Hacıbalayev: “Nikotindən asılılıq insan orqanizmi üçün ciddi təhlükədir”

***Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, siqaret çəkmək hər il 7 milyon insanın ölümünə səbəb olur. Ağciyər,***



***bronxlar, nəfəs borusu xərçəngindən baş verən ölümlərin 85%-nin, ürək-damar xəstəliklərindən baş verən ölümlərin 16%-nin, vərəmdən ölənlərin 26%-nin, aşağı tənəffüs yolları infeksiyalarını səbəbindən ölənlərin 24%-nin səbəbi siqaretdir.***

*Siqaretin zərərləri barədə suallarımızı Mərkəzi Gömrük Hospitalının invaziv kardioloqu Dr.Emin Hacıbalayevə ünvanladıq.*

**- Emin həkim, siqaretdən istifadə insanların hansı orqanlarına daha çox təsir edir və hansı xəstəliklərə səbəb olur?**

- Müasir dövrdə siqaret çəkmək əhalinin müxtəlif qrupları, o cümlədən qadınlar, gənclər, habelə uşaqlar arasında geniş yayılmış pis vərdişə çevrilib. Nikotindən asılılıq insan orqanizmi üçün ciddi təhlükə yaradır.

Siqaret ürəyə və qan damarlarına böyük ziyan vurur. Bir ədəd siqaretdən sonra qan təzyiqi yüksəlir, qan laxtalanması və damarların tıxanması riski artır. Tütündən istifadə edən insanın nəbzi siqaret çəkməyəndən 15000 ürək döyüntüsü artıq olur. Belə ki, onun ürəyinə düşən yük normadan təxminən 20% çoxdur. Damarların daralması toxumalarda oksigen aclığına - hipoksiyaya səbəb olur.

Siqaret çəkənlərin qanında katexolaminlərin yüksəlməsi lipidlərin cəmləşməsinə və xəstədə aterosklerozun, hipertoniyanın inkişafına kömək edir.

**- Son vaxtlar elektron siqaretlərdən istifadə olunur. Belə bir təsəvvür formalaşmışdır ki, elektron siqaret zərərsizdir və siqareti əvəz etməklə heç bir ziyanı yoxdur. Bu, həqiqətən belədirmi?**

- Elektron siqaret istehsalçıları məhsullarının orqanizm üçün tamamilə təhlükəsiz olduğunu iddia edirlər. Amma əslində elektron siqaretlər də adi siqaretlərlə eyni riski yaradır.

Elektron siqaretlərdə təbii nikotini kimyəvi nikotin əvəz edib və bu, orqanizm üçün daha böyük təhlükədir. Tədqiqatlar göstərir ki, aerozolun tərkibində nikotin, qliserin, dadverici komponentlər, propilen qlikol, asetaldehid, formaldehid və digər kanserogen (bədxassəli şişlərin əmələ gəlməsinə səbəb olan) maddələr var.

Kimyəvi əvəzedicilərə nikotin sulfat daxildir. Əvvəllər kənd təsərrüfatı zərərvericilərini öldürmək və bitki xəstəliklərinə qarşı mübarizə aparmaq üçün pestisid kimi istifadə olunurdu, lakin artan toksiklik səbəbindən sonradan qadağan edildi.

**Belə bir sual yaranır:** tərkibində nikotin yoxdursa, siqaret niyə insan sağlamlığına zərərlidir? Aerozolun tərkibindəki maddələr ağciyərlərə nüfuz edir və onları hüceyrə səviyyəsində zədələyir. Nəticədə pnevmoniya, astma və ürək-damar çatışmazlığının inkişafına səbəb olur.

**- Passiv siqaret çəkmə də insan orqanizminə ziyandır?**

- Hazırda siqaret çəkməyən insanlar da bəzi hallarda tütün tüstüsünü məcburən udmağa məruz qalır. Buna passiv siqaret çəkmə deyirlər. Yəni, siqaret çəkməyən insanlar siqaret tüstüsünü udur və bu, onların orqanizminə mənfi təsir göstərir. Siqaret çəkənlər ətraf mühiti çirkləndirir.

Passiv siqaret çəkmə aktiv siqaret çəkmədən daha zərərlidir, çünki siqaret çəkən şəxs tüstünün filtrdən keçən hissələrini qəbul edir. Üstəlik, bu hissə tüstünün cəmi 35-40%-ni təşkil edir, yerdə qalan 60-65%-i isə siqaretin özünün yanması zamanı əmələ gəlir və ətrafdakı insanlar tərəfindən udulur. Siqaret çəkənlər tərəfindən buraxılan dumanlı axının bir hissəsi və tüstülənən siqaret tüstüsünün bir hissəsi onun ağciyərlərinə daxil olur. Eyni zamanda, o, aktiv siqaret çəkən insanın şüurlu şəkildə “qəbul etdiyi” bütün zəhərli maddələrin 60%-ni qəbul edir. Tütün tüstüsü 4000-dən çox maddənin son dərəcə zərərli qarışığıdır. Onların bəziləri selikli qişaları qıcıqlandırır, orqanizmə toksik təsir göstərir, digər hissəsi isə kanserogenlər, yəni bədxassəli şişlərin inkişafına səbəb olan maddələrdir.

**- Siqaretə öyrəşmiş insanlar onu tərgitməkdə çətinlik çəkir. Onlara nə məsləhət verərdiniz?**

- Düzdür, siqareti tərgitmək çətindir. İnsanlar siqaretin onların orqanizminə ciddi təsiri haqqında müntəzəm surətdə məlumatlandırılır, lakin yenə də bu zərərli vərdişdən əl çəkə bilmirlər. Tövsiyə edirəm, bu pis vərdişdən bir dəfəyə əl çəksinlər, istək yarandığı halda açıq havada gəzsinlər, asudə vaxtlarını maraqlı işlərə həsr etsinlər. Həyat qısadır, onu daha da qısaltmasınlar, əksinə, mənalı və maraqlı etməyə çalışsınlar, sağlam və gümrah yaşasınlar.

**- Emin həkim, maraqlı müsahibəyə görə təşəkkür edirik.**

**Müsahibəni apardı:**
**Mərkəzi Gömrük Hospitalının**
**PR mütəxəssisi**
**Dilara Zamanova**

## DÜNYA

# BMT-nin Baş katibi dünya ölkələrinə xəbərdarlıq edib

BMT-nin Baş katibi Antonio Quterreş Baş Assambleyadakı çıxışı zamanı Rusiya və Ukrayna arasındakı müharibə, dünyanın üzləşdiyi problemlər, o cümlədən iqlim dəyişikliyi və dünyanın bir sıra ölkələrindəki yoxsulluğa toxunub.

BMT-nin Baş katibi çıxışında Rusiya-Ukrayna müharibəsinin genişlənəcəyi ilə bağlı dünya ölkələrinə xəbərdarlıq edib.

O Rusiya ilə Ukrayna arasında daha böyük müharibə olduğunu qeyd edərək, sülhə olan ümidlərin getdikcə azaldığını bildirib.

Quterreş İsrail-Fələstin münaqişəsi, eləcə də Əfqanıstan, Myanma, Haiti və Sahel bölgələri də daxil olmaqla sülhü təhdid edən digər münaqişələr barədə də danışıb.

Həmçinin BMT Baş katibi çıxışında sülhə yanaşmanın dəyişdirilməsini vacib hesab edib:



“Bütün ölkələr BMT Nizamnaməsindəki öhdəlikləri yerinə yetirərsə, dünyada sülh hüququ təmin ediləcək”.

# ABŞ-ın ticarət kəsiri rekord həddə çatıb

2022-ci ildə kəsir 948,1 milyard dollar olub. ABŞ-ın xarici ticarət kəsiri 2022-ci ildə əvvəlki illə müqayisədə 12,2% artaraq 948,1 milyard dollar olmaqla rekord həddə çatıb.

Bunu ABŞ Ticarət Nazirliyinin çərşənbə axşamı açıqladığı məlumatlar göstərir.

2022-ci ildə əmtəə və xidmətlər üzrə kəsir 2021-ci ildəki 845 milyard dollarla müqayisədə 103 milyard dollar artaraq 948,1 milyard dollar təşkil edib.



Dekabr ayında kəsir 10,5% artaraq 67,4 milyard dollara çatıb. 2022-ci ildə ABŞ-ın ixracı 2021-ci ilə müqayisədə 453,1 milyard dollar artaraq 3 trilyon dollardan çox olub, idxal 2021-ci ildən 556,1 milyard dollar artaraq 3,96 trilyon dollar təşkil edib.

Dow Jones-un məlumatına görə, ABŞ-ın ticarət kəsiri artıq üçüncü ildir ki, tarixi maksimuma çatır. Əgər 2022-ci ildə bu rəqəm 948,1 milyard dollar təşkil edibsə, altı il əvvəl rəqəm bunun yarısı idi. Agentlik qeyd edir ki, ABŞ uzun illər ərzində böyük ticarət kəsiri ilə üzləşib və adətən bu, iqtisadi göstəricilərə ciddi təsir göstərmir.

# Avropada yeraltı qaz anbarlarının doluluq səviyyəsi azalır

Avropada yeraltı qaz anbarlarının (UGS) doluluq səviyyəsi 70,15%-ə qədər azalıb.

Marja xəbər verir ki, bunu Avropanın Qaz İnfrastruktur Operatorları Assosiasiyasının (Gas Infrastructure Europe, GIE) məlumatları göstərir.

Fevralın 6-da səhər saatlarında verilən məlumata görə, Avropanın UGS qurğularında qazın ümumi həcmi təxminən 76,2 milyard kubmetr təşkil edib. Qaz anbarları 70,15% doludur. Bu, fevralın 6-da səhər saatlarında UGS obyektlərinin 35,35%-ə qədər doldurulduğu 2022-ci ildəkindən təxminən iki dəfə çoxdur ki, bu da təxminən 38,1 milyard kubmetrə bərabərdir.

Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen yanvar ayında bildirmişdi ki, Rusiya keçən ilin səkkiz ayında Avropa İttifaqına qaz nəqlinin 80%-ni kəsib. Onun sözlərinə görə, region, xüsusən də ABŞ-dan LNG tədarükünü əhəmiyyətli dərəcədə artırmaqla Rusiyanın mavi yanacağını əvəz edə bilib.



# Qlobal ərzaq qiymətləri 10 aydır aşağı düşür



Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) açıqlayıb ki, qlobal ərzaq qiymətləri yanvar ayında bitki yağı və şəkər qiymətlərindəki geriləmə səbəbindən ardıcıl 10-cu aydır enişini davam etdirir. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) yaydığı məlumata görə, ərzaq məhsullarının beynəlxalq qiymətlərində aylıq dəyişiklikləri izləyən FAO Ərzaq Qiymətləri İndeksi yanvar ayında əvvəlki ayla müqayisədə 0,8 faiz azalaraq 131,2 bənd olub. Beləliklə, indeks ardıcıl 10-cu ayda da enişini davam etdirib.

Marja-nın məlumatına görə, FAO-nun bəyanatında qeyd olunub ki, Rusiya-Ukrayna müharibəsi başlayandan sonra indeks keçən ilin mart ayında qeydə alınan rekord səviyyədən təxminən 18 faiz (28,5 bənd) aşağı düşüb.

Rusiya-Ukrayna müharibəsinin başlamasından sonra 2022-ci ilin martında indeks 159,7 bəndə çataraq rekord qırmışdı.




**Azəri Light və Brent marakalı neftin bir barelinin 1 – 8 fevral tarixlərində birja qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

***Tərtib etdi:*** *İqtisadçı ekspert Maqsud Quliyev*

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

**Dizayner:**
**Lamiyə NƏBİYEVA**

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500